AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 2 (1462), 19 - 25 yanvar 2021-ci il

Qəzet 2001-ci ildən çıxır.

## Avropa Gimnastika İttifaqının prezidenti ADBTİA-nın qonağı olub

Avropa Gimnastika İttifaqının (UEG) prezidenti Fərid Qayıbov və bədii gimnastika üzrə milli komandanın baş məşqçisi Mariana Vasileva Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ASAPES) olublar. Akademiyanın nəzdində fəaliyyət göstərən Multimedia Mərkəzini ziyarət edən qonaqlar burada yaradılan şərait barədə ətraflı məlumatlandırılıb.

Akademiyanın Tədris və elmi işlər üzrə prorektoru Təhminə Tağızadə və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elnur Məmmədov onlara mərkəzdə ən son avadanlıqlarla təchiz edilmiş radio sistemi, o cümlədən TV layihələrin hazırlanması üçün studiyaların yaradıldığını və bunların bütün zəruri texniki avadanlıqlarla təchiz edildiyini bildirib.

Qonaqlar ASAPES TV-yə müsahibə verərək, Multimedia mərkəzinin işini yüksək qiymətləndiriblər və buranı nümunəvi mərkəz adlandırıblar.



## Pəhləvanlarımız Fransadan 13 medalla qayıdırlar

Fransanın Nitsa şəhərində güləş üzrə Henri Deqlan Qran-Pri turniri keçirilib. Üç gün davam edən ənənəvi yarışda ölkəmizi sərbəst və yunan-Roma güləşçiləri təmsil ediblər. Pəhləvanlarımız turniri 13 (1 qızıl, 6 gümüş, 6 bürünc) medalla başa vurublar. Bu medallardan 5-i (2 gümüş, 3 bürünc) sərbəst güləşçilərin, 8-i (1 qızıl, 4 gümüş və 3 bürünc) isə yunan-Roma güləşçilərinin payına düşüb.

Sərbəst güləş yarışlarında komandamıza gümüş medalları İslam Bazarqanov (57 kq) və Osman Nurməhəmmədov (92 kq) qazandırıblar. Turan Bayramov (65 kq), Hacımurad Hacıyev (74 kq) və Abubakr Abakarov (86 kq) Qran-Prini bürünc medalla başa vurublar.

Yarışda 5 medal qazanan Namiq Abdullayevin rəhbərlik etdiyi sərbəst güləş üzrə yığmamız komanda hesabında 135 xal toplayaraq, 3-cü yeri tutub.

Qran-Prinin sonuncu günündə yunan-Roma güləşçilərimiz xalça üzərinə çıxıblar. Yığmamız yarışda 9 güləşçi ilə mübarizə aparıb ki, onlardan da 8-i fəxri kürsüdə yer alıb. Təmsilçilərimizdən komandamıza yeganə qızıl medalı 87 kq çəki dərəcəsində çıxış edən İslam Abbasov qazandırıb. O, həlledici final görüşündə Türkiyə güləşçisinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Murad Məmmədov (60 kq), Rafiq Hüseynov (82 kq), Murad Lokyayev (97 kq) və Sabah Şəriəti (130 kq) yalnız finalda məğlub olaraq gümüş medala sahib çıxıblar.

Bürünc medalları isə komandamızın aktivinə Murad Bazarov (60 kq), İslambek Dadov (67 kq), Sənan Süleymanov (77 kq) yazdırıblar.

Beləliklə, klassiklərimiz Qran-Pridə 1 qızıl, 4 gümüş və 3 bürünc medal əldə ediblər. Komandamız bu nəticə ilə 160 xalla ikinci yeri tutub.

Qeyd edək ki, Fransadakı yarış sərbəst güləş üzrə millimiz üçün həm də xoşagəlməz hadisə ilə yadda qalıb. Belə ki, yarışda 97 kq çəki dərəcəsində mübarizə aparan sərbəst güləş üzrə Olimpiya, dünya və Avropa çempionumuz Şərif Şərifov zədələnib. Nəticədə o, yarışı mükafatsız başa vurub.



## Gimnastlarımız "Fəxri idman ustası" adına layiq görüldülər

İdmançı karyeraları ərzində göstərdikləri nəticələrə görə bədii gimnastikanın 4 nümayəndəsi - Siyana Vasileva, Aliyə Paşayeva, Anastasiya Prasolova, Səbinə Abbasova "Fəxri İdman ustası" adına layiq görülüblər. Siyana Vasileva və Aliyə Paşayeva Avropa çempionatlarının qrup hərəkətləri komandası tərkibində gümüş (Bakı, Azərbaycan - 2014) və bürünc (Qvadalaxara, İspaniya - 2018) mükafatçıları olublar. Aliyə Paşayeva həmçinin 2019-cu ildə Bakıda keçirilən dünya çempionatında çoxnövçülük nəticələrinə əsasən Tokio-2020 Olimpiya Oyunlarına vəsiqə qazanan qrup hərəkətləri komandasının tərkibinə daxil olub.

Gənclər arasında Avropa Çempionatının gümüş mükafatçısı olan Səbinə Abbasova (Hacıyeva), 2014-cü ildə Bakıda keçirilən Avropa çempionatında artıq böyüklər proqramında (3 top və 2 lent) gümüş medalını təsdiqləmişdi.

Anastasiya Prasolova Azərbaycanın bədii gimnastika tarixində ilk dəfə olaraq ölkəmizi Olimpiya Oyunlarında (Pekin-2008) təmsil etmiş və çoxnövçülük finalında 7-ci yerdə qərarlaşmış qrup hərəkətləri komandasının üzvü olub.

İdmançı kimi göstərdikləri nailiyyətlərinə görə "Fəxri idman ustası" adına layiq görülmüş hazırki məşqçilərimiz artıq yetirmələrinə sərf etdikləri əməyin bəhrəsini görməkdədirlər. Belə ki, Anastasiya Prasolovanın yetirməsi Bakı-2015 Avropa Oyunlarında gümüş və 2015-ci ilin Avropa çempionatında bürünc medal əldə edib. 2020-ci ildə Ukraynanın Kiyev şəhərində keçirilmiş Avropa çempionatında gümüş və bürünc mükafata layiq görülmüş qrup hərəkətləri komandasının məşqçilərindən biri Siyana Vasileva olub. Aliyə Paşayeva Bakı Gimnastika məktəbində, Səbinə Hacıyeva isə Milli Gimnastika Arenasında yığma komandaya hazırlıq qrupunda olan gənc gimnastların yetişdirilməsində xidmət edirlər.

## Olimpizm

### "Olimpiya kəndi" bu ilin iyun ayında hazır olacaq

Pekin-2022 Qış Olimpiya Oyunlarının iştirakçılarının yaşayacağı "Olimpiya kəndi" bu ilin iyununda hazır olacaq. Bu barədə




Pekin-2022-nin Təşkilat Komitəsi məlumat yayıb. Qeyd edilib ki, yarışların keçiriləcəyi bir sıra əsas obyektlərdə artıq tikinti işləri başa çatıb.

2020-ci ilin nəticələrini yekunlaşdıran Beynəlxalq Olimpiya Komitəsinin Koordinasiya Komissiyasının rəhbərliyi Pekin-2022 Təşkilat Komitəsinin əldə etdiyi irəliləyişi yüksək qiymətləndirib. Qeyd olunub ki, koronavirus pandemiyası və sınaq yarışlarının ləğvinin yaratdığı çətinliklərə baxmayaraq, yarışların keçiriləcəyi 12 idman obyekti artıq tam hazırdır. Təxminən bir milyon insan 2022-ci ildə keçiriləcək Qış Olimpiya Oyunlarında könüllü olaraq işləmək istəyini dilə gətirib.

### Rusiya Qış Olimpiya Oyunlarına Ufa şəhərini təqdim edəcək

2030-cu ildə keçiriləcək Qış Olimpiya Oyunlarını keçirməyə namizədlərin siyahısı artıb. Rusiyanın Ufa şəhəri də Olimpiadanı qəbul etməkdə maraqlıdır. Namizədliklə bağlı sifarişlərin qəbulu hələ başlamayıb. Bu üzdən də rusiyalıların istəyi rəsmiləşməyib.




Ufayadək Vankuver (Kanada), Solt-Leyk-Siti (ABŞ), Sapporo (Yaponiya) və iki ortaq təşkilatçılıq ehtimalı var. Bunlar İspaniya, Fransa, Andorra və Polşa, Ukrayna, Latviya "üçlük"ləridir.

### Yeni ilin ilk sınağı iki gümüş medalla başa çatdı

Səh. 2

### Antidopinq təhsili proqramını həyata keçirmək barədə razılıq əldə olundu

Səh. 2

### 20 Yanvar şanlı tariximizə şəhidlərin qanı ilə yazılmışdır

Səh. 3

### Ölümün bir addımlığından dönən Vətən müharibəsinin idmançı-iştirakçısı

Səh. 4



# Yeni ilin ilk sınağı iki gümüş medalla başa çatdı

Qətərin paytaxtı Dohada cüdo üzrə "World Masters" turniri keçirilib. 3 gün davam edən yarışda ümumilikdə 398 (215 kişi, 183 qadın) cüdoçu iştirak edib. Turnirdə 7 (4 kişi, 3 qadın) idmançı ilə təmsil olunan Azərbaycan yığması 2 gümüş medala sahib çıxıb. Komandamıza medalları legioner idmançılarımız qazandırıblar. Kişilərin mübarizəsində 100 kq çəki dərəcəsində çıxış edən cüdoçumuz Zelim Kotsoyev Misir, Cənubi Koreya, Kanada və Niderland idmançılarını üstələyərək finala çıxıb. Təmsilçimiz həlledici qarşılaşmada Olimpiya mükafatçısı, ikiqat dünya (komanda şəklində) və səkkizqat (üçü fərdi, beşi komanda şəklində) Avropa çempionu gürcüstanlı Varlam Liparteliani ilə qarşılaşıb. Bu görüşdə rəqibinə uduzan cüdoçumuz gümüş medala layiq görülüb.

Komandamıza digər gümüş medal isə qadınların mübarizəsində çıxış edən İrina Kindzerska (+78 kq) qazandırıb. İlk görüşdə Almaniya təmsilçisini məğlub edən ukraynalı legionerimiz ardınca Cənubi Koreya və Kamerun təmsilçilərindən üstün olub. Finalda İrina fransalı dünya mükafatçısı və ikiqat Avropa çempionu Roman Diko ilə qarşılaşıb. Həlledici görüşdə rəqibinə uduzan cüdoçumuz fəxri kürsünün ikinci pilləsində yer alıb.

Beləliklə, "World Masters" turnirini 2 gümüş medalla başa vuran millimiz 69 ölkə arasında 8-ci yeri tutub. İlk pillədə 7 medalla (5 qızıl, 1 gümüş, 1 bürünc) Fransa millisi qərarlaşıb. 3 qızıl medal qazanan Cənubi Koreya ikinci, 2 qızıl, 5 gümüş medal əldə edən Yaponiya isə üçüncü olub.

"World Masters" turnirindən sonra fəxri kürsüdə yer alan İrina Kindzerska və Zelim Kotsoyev yarışla bağlı təəssüratlarını "Olimpiya dünyası" qəzeti ilə bölüşüblər. Noyabr ayında Çexiyada təşkil olunan Avropa çempionatındakı nailiyyətini Dohada da təkrarlayan İ.Kindzerska bu yarışın onun üçün Olimpiya Oyunlarına hazırlıq baxımdan çox əhəmiyyətli olduğunu qeyd edib. "Düzünü desəm, özümə çox əmin idim. Finalda rəqibimə qarşı hücumlar edərək onun zəif nöqtələrini müəyyən etməyə çalışırdım. Lakin o, mənim bu taktikama cavab olaraq, əks-hücumlar həyata keçirdi. Hər bir halda, mən əldə etdiyim nailiyyətdən razı qaldım. Bu idmandır. İnsan öz zəif nöqtələrini də qəbul edib, onları aradan qaldırmaq üçün çalışmalıdır.

Həmçinin qeyd edim ki, "World Masters" turniri mənim Olimpiya Oyunlarına olan yüksək reytinqimin daha da artmasını təmin etdi. Bu turnir mənə nöqsanlarımı görmək və onları aradan qaldırmaq üçün lazım idi", - deyə İrina Kindzerska bildirib.

Komandamıza digər gümüş medalı qazandıran Zelim Kotsoyev isə qəzetimizə açıqlamasında bu medalın dəyərinin onun üçün böyük olduğunu qeyd edib: "Bu, mənim "World Masters" turnirində əldə etdiyim ilk medaldır. Etiraf edim ki, yarışlar çox gərgin keçdi. Finala qədər dörd görüş keçirdim və onlardan 3-ü mənim üçün prinsipial döyüşlər oldu. Belə ki, daha əvvəl həmin idmançılara məğlub olmuşdum. Sevinirəm ki, bu turnirdə revanş almağa nail oldum. Buna görə də, ümumilikdə turnirdəki çıxışımdan razı qaldım. Finalda gümüş medal ilə kifayətlənməyim bir az arxayınlaşmağım və döyüşə dərhal köklənə bilməməyimlə bağlı ola bilər. Təcrübəli rəqib isə belə səhvləri bağışlamır. Rəqibimə qarşı əks-hücum təşkil etməyə isə vaxt imkan vermədi. Lakin bundan sonra etdiyim səhvləri düzəltməyə və yenidən təkrarlamamağa çalışacağam".

Qeyd edək ki, cüdo millimizin növbəti sınağı İsrailin paytaxtı Təl-Əvivdə olacaq. Bu, fevralın 18-20-də keçiriləcək Böyük Dəbilqə yarışı olacaq.



## AMADA-nın direktoru WADA-nın ekspert məsləhətçi qrupuna üzv seçilib

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynli Ümumdünya Antidopinq Agentliyinin (WADA) Milli Antidopinq Təşkilatları üzrə (NADO EAG) yeni yaradılmış ekspert məsləhətçi qrupunun üzvü seçilib. AMADA-dan verilən məlumata görə, 10 mütəxəssisdən ibarət ekspert məsləhətçi qrupunda Azərbaycan da daxil olmaqla, 9 ölkənin (Azərbaycan, Norveç, Peru, İsveç, Tunis, Kanada, Böyük Britaniya, Fransa, Çin) və bir beynəlxalq təşkilatın (İNADO) nümayəndəsi təmsil olunur. Yeni yaradılan ekspert məsləhətçi qrupunun məqsədi WADA-ya bütün milli antidopinq təşkilatlarının qısa və uzunmüddətli inkişaf proqramları üzrə ekspert məsləhət, tövsiyə və təlimatları verməkdir. Qeyd edək ki, 2021-ci ildə yeni Ümumdünya Antidopinq Məcəlləsinin və beynəlxalq standartların qüvvəyə minməsi ilə paralel olaraq, Agentliyin özündə də rəhbər, işçi və ekspert qurumları ilə bağlı bəzi struktur dəyişiklikləri edilib. Bu dəyişikliklərdən biri də bəzi məsləhətçi qrupların ekspert məsləhətçi qruplarına çevrilməsidir. Dəyişikliklərə əsasən, yeni yaradılan qrupların WADA İcraiyyə Komitəsi və Təsisçilər Şurasının baxdığı məsələlərə ekspert məsləhətləri verməsi təmin edilib.

# Antidopinq təhsili proqramını həyata keçirmək barədə razılıq əldə olundu

Beynəlxalq Boks Assosiasiyası (AİBA) və Beynəlxalq Test Agentliyi (İTA) antidopinq təhsili proqramını həyata keçirmək barədə razılığa gəliblər. Bu barədə AİBA-nın mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilib ki, 2021-ci ilin fevralında AİBA İTA ilə birlikdə qitə forumları çərçivəsində dopinqlə mübarizə üzrə genişmiqyaslı təhsil proqramına başlayacaq.



AİBA boksda müasir antidopinq proqramını təmin etmək üçün İTA ilə 2021-ci il üçün müqaviləsini yeniləyib. Müqavilə AİBA prezidenti Umar Kremlyev və İTA-nın icraçı direktoru Benjamin Koen tərəfindən imzalanıb.

U.Kremlyev qeyd edib ki, İTA ilə təkcə milli federasiya nümayəndələri üçün deyil, həm də idmançılar və məşqçilər üçün ildə ən azı dörd seminarın keçirilməsi barədə razılığa əldə edilib: "Təhsil proqramımıza fevral və mart aylarında AİBA-da onlayn təşkil ediləcək qitə forumları zamanı başlayacağıq. Mən bunu səbirsizliklə gözləyirəm, çünki antidopinq təhsili boksu təmiz idmana çevirmək üçün açardır".

B.Koen isə bütün boks ictimaiyyətini əhatə edəcək təhsil proqramının faydalı olacağına ümid etdiyini bildirib: "İTA bir müddətdir ki, AİBA-nın antidopinq proqramını həyata keçirir. Əməkdaşlığımızın 2021-ci ildə də davam edəcəyindən məmnunuq və ümid edirik ki, təhsil proqramı faydalı olacaq. Tərəfdaşlığın uzunmüddətli olmasını təmin etmək üçün müzakirələr artıq aparılır".

## Qitə çempionatının vaxtı dəyişdirildi

Bu mövsüm taekvondo üzrə Avropa çempionatı aprelin 8-11-də keçiriləcək. Bu barədə Avropa Taekvondo Birliyi qərar verib. Qitə çempionatı Bolqarıstanın paytaxtı Sofiya şəhərində təşkil ediləcək. Turnirin əvvəlcə may ayında təşkil olunacağı planlaşdırılmışdı.

Qeyd edək ki, taekvondo üzrə Olimpiya təsnifat turnirinin də vaxtı və yeri müəyyənləşib. Belə ki, bu yarış mayın 7-8-də Sofiyada keçiriləcək.

## *Güllə atıcılarımız Qran-Pri turnirində iştirak edəcəklər*

Martın 9-16-da Polşanın Vroslav şəhərində güllə atıcılığı üzrə Qran-Pri turniri keçiriləcək. 25 metr məsafəyə atəşaçma yarışlarında Azərbaycan komandası da iştirak edəcək. Ölkəmizi turnirdə Ruslan Lunyov və Nigar Nəsirova təmsil edəcəklər.

Qeyd edək ki, güllə atıcılarımızın da iştirakı planlaşdırılan bu mövsümün ilk yarışı - Avropa müzakirə ediləcək. Qitə çempionatının keçirilməsi mümkün olmayacağı təqdirdə, Tokio-2020 üçün kvota yerləri Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi təsnifat sisteminə uyğun olaraq ötən il may ayına olan Avropa reytinqinə görə ayrılacaq. Xatırladaq ki, Azərbaycanın güllə atıcısı Ruslan Lunyov İtaliyanın Bolonya şəhərində



çempionatı ləğv edilib. Finlandiyanın Lohya şəhərində fevralın 26-dan martın 6-dək keçirilməli olan yarış koronavirus pandemiyası səbəbindən baş tutmayacaq. Yarışın başqa tarixə keçirilməsi keçirilən qitə çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışının qalibi olmaqla Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb.

Formula 1 rəhbərliyi 2021 mövsümünün təqvimində əlavə dəyişikliklər edə bilər. Formule1 nəşrinə istinadən verilən xəbərə görə Monako, Azərbaycan və Kanada Qran-prilərinin ləğv edilmə ehtimalı var. Buna səbəb koronavirus pandemiyasına görə marşrutların hazırlana bilməməsidir. Hər üç mərhələ şəhər trasında təşkil edilməlidir. Ləğv olunacağı təqdirdə, onlar Türkiyə, İtaliya (Mucello) və Almaniyadakı (Nyurburqrinq) yarışlarla əvəz edilə bilər.

## Formula 1 üzrə Azərbaycan Qran-prisi ləğv edilə bilər



Qeyd edək ki, Azərbaycan Qran-prisi iyunun 4-6-da keçirilməlidir. 2020-ci ildə Bakıdakı yarış koronavirusa görə ləğv edilib.

Daha əvvəl "Auto Motor und Sport" Azərbaycan Qran-prisinin ləğv edilmə ehtimalının olduğunu yazıb.

Bildirək ki, Formula 1-də yeni mövsüm martın 28-də Bəhreyn Qran-Prisi ilə start götürəcək. Çempionata dekabrın 10-12-də Əbu-Dabidəki yarış ilə yekun vurulması planlaşdırılır.

# "Avropanın idman paytaxtı" Lissabon seçildi

"Avropanın idman paytaxtı - 2021" müsabiqəsinin nəticələri açıqlanıb. Müsabiqənin nəticələrinə əsasən, Lissabon 2021-ci ildə "Avropanın idman paytaxtı" seçilib. Müsabiqənin ötənilki qalibi olan İspaniyanın Malaqa şəhəri COVID-19 pandemiyası səbəbindən təxirə salınmış tədbirlərin bir qismini keçirmək üçün bu titulu 2021-ci ilin iyuluna qədər özündə saxlayacaq.

"Avropanın idman paytaxtı" adı Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası tərəfindən 2001-ci ildən etibarən 500 mindən çox əhalisi olan Avropa şəhərlərinə verilir.

Federasiya, həmçinin hər il 9-dan 19-dək şəhəri "Avropanın idman şəhəri" titulu ilə də təltif edir. Gəncə 2019-cu il üçün "Avropanın idman şəhəri" tituluna layiq görülüb. Gəncə MDB məkanında bu ada layiq görülən ilk şəhər olub.

# 20 Yanvar şanlı tariximizə şəhidlərin qanı ilə yazılmışdır



*20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir qəhrəmanlıq səhifəsidir. Bu, təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun əsaslı mərhələsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. Bu, uzun illər Sovet İmperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən bir imtahan idi.*



**1980**-ci illərin sonlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşmişdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Regionda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı törətdikləri cinayətlər xalqımızın hiddətinə səbəb oldu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi xalqımızın ədalətsizliyə qarşı apardığı mübarizənin tərkib hissəsi idi. Sovet rəhbərliyi Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törətdi. Kütləvi iğtişaşların qarşısını almaq bəhanəsi ilə SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək və belə tədbir nəzərdə tutulmayıb. Ancaq xalqımız aldadılırdı. Çünki bu vaxt əlavə sovet hərbi birləşmələrinin Bakıya yeridilməsi başa çatmaqda idi.

Yanvarın 19-da axşam Azərbaycan televiziyasının enerji bloku partladıldı. Bu, ona görə edildi ki, Azərbaycan xalqı Bakıda nə baş verdiyini bilməsin. Sonradan 20 Yanvar faciəsini araşdıran dövlət komissiyası tərəfindən sübut edilmişdir ki, həmin partlayış Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən planlaşdırılaraq həyata keçirilib.

Yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet əsgərləri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini pulemyot və avtomatlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 121 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. Sonrakı günlər də daxil olmaqla, bu hücum nəticəində 132 nəfər həlak olmuşdur ki, onlardan da 123-ü kişi, 5-i qadın, 4-ü uşaq idi. Həlak olanların arasında 4 polis işçisi, 1 həkim, 1 aspirant, 3 elmlər doktoru olub. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi. Bu insanların heç birinin günahı yox idi. Onlar doğma vətənimizin azadlığına və müstəqilliyinə qənim kəsilən sovet rəhbərliyinə etiraz etmək üçün küçələrə çıxmışdılar. Bu insanların heç biri silahlı deyildi. Xalqımız əliyalın halda öz etirazını bildirirdi.

Bakı şəhərində 20 yanvar tarixindən etibarən fövqəladə vəziyyət tətbiq olunması haqqında 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-dan zirehli maşınlardan xalqa elan edilirdi. Yəni dinc insanlar vəhşicəsinə qətlə yetirildikdən sonra fövqəladə vəziyyət barədə məlumatlar yayılırdı. Bununla belə, fövqəladə vəziyyətin elan olunduğu gün - yanvarın 20-də daha 5 nəfər dinc sakin imperiya ordusu tərəfindən güllələndi. O zaman Moskvada yaşayan ümummilli lider Heydər Əliyev heç bir təhlükəyə baxmayaraq, heç nədən çəkinməyərək yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. O, baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi. Burada mətbuat konfransı keçirən Heydər Əliyev, başda Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Xalqımızın böyük oğlu bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Dahi şəxsiyyət xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi və 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ümummilli lider 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirdi. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər Xiyabanını ziyarət etdi. Elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz ulu öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq hüzn günü elan olundu.









Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi.

Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib. 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə verilən aylıq müavinətin artırılması bir daha sübut edir ki, vətənimizin müstəqilliyi uğrunda canından keçənlər heç vaxt unudulmur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi səviyyəsinin yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha aydın göstərir.

Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin fədakarlığını, Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsidir. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb.

2006-cı il yanvarın 19-da "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərman 20 Yanvar şəhidlərinin ailələrinin maddi vəziyyətinin yaxşılaşdırılmasına zəmin yaratdı. Ölkə başçısının Fərmanı ilə "20 Yanvar şəhidi" fəxri adı almış 140 nəfər şəxsin 180 nəfər ailə üzvünə Prezident təqaüdü verilir. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə aldığı pensiyadan başqa, əlavə ödəniş verilir.

Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur. Bu mənzillər 20 Yanvar şəhidlərinin ailələrinə, əlillərə də verilir. Əlillərin sağlamlığının bərpası da dövlətimizin diqqət mərkəzindədir. Vətənimizin müstəqilliyi uğrunda mübarizədə əlil olan insanların sağlamlıqlarının bərpası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub.

20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının yaxınlığında xatirə kompleksinin yaradılması oldu.

Prezident İlham Əliyevin tapşırığı ilə 2009-cu ilin oktyabrında inşasına başlanılan memorial abidə kompleksinin açılış mərasimi 2010-cu il yanvarın 20-də həyata keçirildi.

Bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, dünyada diqqət mərkəzində olan Heydər Əliyev Fondu da müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlıqlarının bərpası istiqamətində mühüm işlər görür.

Heydər Əliyev Fondunun xalqımızın tarixinə, tarixi hadisələrinə həssas münasibəti də xüsusi qeyd olunmalıdır. Belə ki, Fondun təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlər hər yerdə böyük əks-səda doğurub. Bundan başqa, Qarabağ münaqişəsi, xalqımızın tarixi yaddaşı ilə bağlı kitablar, bukletlər, albomlar nəşr olunub, filmlər çəkilib. Bu layihələr xalqımıza qarşı törədilən ağlasığmaz cinayətlərin dünya ictimaiyyətinə çatdırılması, bu cinayətlərə hüquqi-siyasi qiymətin verilməsinə nail olunması istiqamətində böyük əhəmiyyət kəsb edir.

Xalqı yaşadan və qələbəyə ruhlandıran onun inamıdır. Hazırda məhz belə bir inamı Azərbaycan Prezidenti İlham Əliyev xalqımızda və gənclərimizdə yarada bilmişdir.

Xalqımızın tarixində faciəli günlər yetərincədir. Əsrlər boyu yadelli düşmənlərin göz dikdiyi Vətənimiz işğallara və təcavüzlərə məruz qalıb. Lakin qəhrəman Azərbaycan xalqı buna baxmayaraq qürur və mətinliyini əldən verməyib.

İllər keçəcək, nəsillər dəyişəcək, amma tarix unudulmayacaq. Heç bir azərbaycanlı başımıza gətirilən faciələri unutmayacaq.

Artıq bu gün şanlı tarixmizdə yeni bir səhifə, yeni bir tarix yazılıb.

28 ildən sonra Azərbaycan öz tarixi torpaqlarını geri aldı. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan ordusu dünyaya sübut etdi ki, bu torpaqların əsl sahibi elə bu torpaqlarda da yaşamalıdır.

Cənab prezident mötəbər kürsülərdə çıxış edərək, Qarabağın Azərbaycan torpağı olduğunu dünya dövlətlərinin və cəmiyyətlərinin diqqətinə çatdırdı. Düşmən təkcə hərb meydanında deyil, siyasi arenada da məğlubiyyətə uğradı.

Bu Cənab Prezidentin XXI əsr dünya siyasətində möhtəşəm bir qələbəsidir. Ölkə başçısının yürütdüyü uzaqgörən siyasət, xalqımızın rifahının yüksəldilməsinə göstərdiyi diqqət və qayğı sayəsində biz böyük zəfər qazandıq. Hər birimiz Azərbaycana bütövlük, xalqımıza xoşbəxtlik bəxş etdiyinizə görə Ali Baş Komandan İlham Əliyevə minnətdarıq.

Artıq Qarabağ azaddır. İllərdən bəri əsarətdə qalan torpaqlarımız, Qarabağın tacı olan Şuşa bizimdir. Qarabağ Azərbaycandır!

Biz inanırıq ki, tezliklə həmin torpaqlar ən inkişaf etmiş bölgəyə çevriləcək. Xalqımız Cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya inanır, bu işdə daim onları dəstəkləyir.

***Dilqəm Quliyev,***
***pedaqogika üzrə elmlər doktoru, professor***

*Vətən müharibəsinin qəhrəmanları*

# Ölümün bir addımlığından dönən Vətən müharibəsinin idmançı-iştirakçısı

***İllərdir Qarabağ həsrəti ilə alışıb yanan xalqımız, bu gün ev sahibi olaraq doğma yurdumuza qayıtmağa hazırlaşır. Xalqımızın qürurunu, mənəvi azadlığını geri qaytaran, bizə bu xoşbəxtliyi nəsib edən isə Ali Baş Komandan İlham Əliyev və ölkəmizin mərd oğullarıdır. İkinci Qarabağ müharibəsində Vətən uğrunda canını fəda etməyə hazır olan igidlərimiz arasında bayrağımızı beynəlxalq arenalarda daim ucalara qaldıran idmançılarımız da az deyil. Öz səhifələrində Vətən müharibəsinə xüsusi yer ayıran "Olimpiya dünyası" qəzeti budəfəki sayında oxucularını İkinci Qarabağ müharibəsinin iştirakçısı olan basketbolçu Kənan Əliyev ilə tanış edir.***



Kənan Əliyev 1993-cü il aprelin 23-də Bakı şəhərində anadan olub. O, 200 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. 2013-cü ildə ali təhsilini bitirdikdən sonra hərbi xidmətini xüsusi təyinatlı kəşfiyyat bölməsində keçib. Hərbi xidmətini şərəflə başa vurduqdan sonra bir müddət "Təhsil" Respublika İdman Mərkəzində məşqçi kimi fəaliyyət göstərib. Vətən müharibəsinin iştirakçısı hazırda 8 saylı Binəqədi İdman Məktəbində basketbol bölməsinin baş məşqçisi vəzifəsində çalışır.

Basketbol üzrə yüksək divizyonun bir neçə klubunda çıxış edən Kənan Əliyev "Araz-Naxçıvan" komandası ilə 2-ci yer, "Bakı" komandası ilə 3-cü yerə layiq görülüb. Super Liqanın Respublika çempionatının qalibi olan basketbolçu, 2019-2020-ci illər mövsümündə "Zirvə-Astara" komandasının heyətində Super Liqanın qalibi adını qazanıb.

***- İstərdik ki, əvvəlcə Vətən müharibəsində keçdiyiniz döyüş yolunuza birgə nəzər salaq.***

- Vətən müharibəsində iştirak etmək üçün könüllü şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdim. Qısa müddətdə mənə çağırış gəldi və artıq sentyabrın 28-də təlimlərimiz başladı. Bir neçə gün təlimlərdə iştirak etdikdən sonra oktyabrın 4-də Füzuli rayonu istiqamətinə göndərildim. Təxminən üç həftə Füzulidə gedən döyüşlərdə iştirak etdikdən sonra Cəbrayıla yola düşdük. Ordumuzun gücü və birliyi sayəsində Cəbrayıl şəhəri düşməndən azad edildi. Bu, həqiqətən də, çox qürurverici hisslər idi. İllərdir yağıların əsarətində olan torpağımızı düşməndən təmizləmək və həmin yerlərə ayaq basmaqdan böyük fəxr hissi keçirirdik. Daha sonra Qubadlıya yollandıq. Qubadlı rayonunun azadetmə əməliyyatı zamanı 3 dəfə mühasirəyə düşdük, ölümlə üz-üzə qaldıq. Qarşı tərəfin minaatanların aramsız atəşinə görə təxminən 3-4 saat sığınacaqdan çıxa bilmədik. Ermənilər tez-tez mövqelərini dəyişirdilər. Ona görə də gözləyib, yeri dəqiqləşdirib, bir həmlə ilə onları məhv etməyə çalışırdıq.

Yerləşdiyimiz ərazidə bir həftə mühasirədə qaldıq. Heç kimlə əlaqə saxlaya bilmirdik. Hətta yemək də gətirmək mümkün olmadığına görə yeməksiz və susuz qalmışdıq. Üstümüzdə yalnız az miqdarda su və quru qidalar var idi. Bir sözlə, Qubadlıda dəfələrlə ölümlə üz-üzə gəldik. Daha sonra hərbçilərimiz düşmənin texnikasının hansı ərazidə olduğunu dəqiq müəyyən edərək, məhv etdilər. Ordumuzun dəqiqliyi və peşəkarlığı olmasa idi, bu gün heç birimiz həyatda olmazdıq. Bu hadisədən sonra Qubadlının Xanlıq kəndində yerləşdik. Yağış nəticəsində yaranan palçıq hərəkətimizə mane olurdu. Lakin bu və ya digər səbəblər döyüş əzmimizi qıra bilmirdi. Çünki bölüyümüz çox ciddi təlim keçmişdi və ən ağır şəraitdə belə vuruşmağa tam hazır idi. Daxilimizdəki hisslər də bizə ruh yüksəkliyi verirdi. Hesab edirəm ki, müharibədə ən əsas məqam əsgərlər arasında ruh yüksəkliyinin olmasıdır.

***- Açıq döyüşdən qorxan düşmən müxtəlif hiylələrə də əl atırdı. Bu hiylələrdən necə qorunurdunuz?***

- Bilirsiniz, düşmən də olsa, gərək döyüşdə ləyaqətlə vuruşmalıdır. Lakin biz onlarda bu insani keyfiyyətlərin olmamasının dəfələrlə şahidi olmuşuq. Erməni əsgərləri heçkəsin düşünməyəcəyi yerlərə minalar yerləşdirmişdi. Mənim üçün ən gözlənilməzi isə su bulağına yerləşdirilən mina oldu. Təəssüf ki, hərbçi yoldaşlarımızdan biri bulağın suyundan istifadə edərkən minaya düşüb şəhid oldu. Düşmən hətta yaşadıqları evləri tərk etməzdən əvvəl ordumuza zərər vermək üçün müxtəlif üsullardan istifadə edirdi. Onlar qapı tinlərinə, malqara saxladıqları yerlərə minalar yerləşdirmişdilər. Təbii ki, ordumuz bütün bu təhlükələri nəzərə alaraq, çox diqqətli və ehtiyyatlı addımlar atırdı.

Füzulidə olan zaman bir erməni tankçı ilə qarşılaşdıq. O, bizimlə Azərbaycan dilində danışaraq, özünü azərbaycanlı kimi təqdim edib, bizi ruhdan salmağa çalışırdı. Müharibədən geri qayıtmayacağımız kimi ifadələr işlədirdi. Lakin biz kimi təxribatlara hazır olduğumuz üçün dərhal düşməni zərərsizləşdirdik. Hətta bir neçə dəfə ordumuza məxsus hərbi geyimləri geyinib, bizə yaxınlaşmağa çalışırdılar. Lakin ehtiyatı əldən verməyərək, bu kimi hiylələrə uymadıq. Təəssüf ki, nə qədər diqqətli olsaq da, qəlpə yaralarından və minalardan şəhid olan əsgərlərimiz oldu. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Yaralı olan əsgərlərimizə isə tezliklə şəfa tapmalarını arzu edirəm.

***- Üçtərəfli bəyanat imzalandıqdan sonra işğaldan azad olan ərazilərimizdə qalan düşmən əsgərləri meşələrdə gizlənərək, təxribat törətməyə çalışırdılar. Siz belə hallarla rastlaşmadınız?***

- Müharibə bitdikdən sonra Qubadlıda olarkən, meşələrdə partizan qruplaşmalarının açdıqları atəş səsləri eşidilirdi. Belə ki, ordumuzun əsgərləri həmin qrupların gizləndiyi ərazilərə daxil olanda onlar hücuma keçirdilər. Yəni onlar müxtəlif təxribatlar törətmək niyyətində idilər. Buna görə də, hətta müharibə bitdikdən sonra belə ehtiyyatı əldən vermirdik və daim nəzarətdə olurduq. Həmin vaxt bir erməni hərbçisi ilə üz-üzə gəldik. Qulluq etdiyi hərbi hissənin şəxsi heyəti məhv olan düşmən, təşviş içərisində idi və bir neçə gün evin zirzəmisində gizlənmişdi. Qorxu içərisində olan düşmən nə baş verdiyini anlamırdı. Biz onu zərərsizləşdirdik.

Qeyd edim ki, müharibədən sonra sərhədləri müəyyənləşdirəndə ermənilərlə aramızda 50 metr məsafə var idi. Düşmənlər bizimlə Azərbaycan dilində ünsiyyət quraraq, bizi neytral əraziyə dəvət edirdilər. İllərin xain düşmənini tanıdığımız üçün onların hər bir addımının təxribat olduğunu anlayırdıq. Onlar müharibə qurtarandan sonra belə atəşkəs rejimini pozurdular. Buna səbəb isə aciz düşmənin ordumuz qarşısında olan qorxu hissi idi. Erməni əsgərləri əsasən axşamlar, çiskinli hava şəraitində dərələrə atəş açırdılar. Qorxurdular ki, əsgərlərimiz onların üzərinə hücuma keçər. Demək olar ki, hər gün bu hadisə təkrarlanırdı.

***- Müharibə şəhidsiz olmur. Sizin üçün ən təsirli şəhid xəbəri hansı oldu?***

- Təbii ki, hər bir şəhidimiz bizim üçün əziz və dəyərlidir. Bu müharibədə mənim üçün ən gözlənilməz və sarsıdıcı xəbər polkovnik-leytenant Qərib Baxşəliyevin şəhidlik zirvəsinə ucalması oldu. O, düşmənə əsir düşməmək üçün silahı ilə özünə başından atəş açdı. Bu, mənə həqiqətən də çox təsir etdi. Çünki o, bütün təhlükələrin üzərinə ilk olaraq özü gedirdi. Hər bir əsgəri qoruyub, ona zərər gəlməməsi üçün çalışırdı. Bizə Qərib Baxşəliyevin şəhid olması xəbəri bir müddət sonra çatdı. Hərbi texnikalarımızın və şəxsi məlumatlarımızın Qərib Baxşəliyevin telefonunda olduğu üçün bizə dərhal telefonlarımızı söndürmək əmri verildi. Bu addım düşmənin şəxsi məlumatlarımızdan yararlanaraq, təxribat törətməsinin qarşısını almaq məqsədi ilə atılmışdı.

***- İşğaldan azad olunmuş kəndlərə daxil olarkən hansı hissləri keçirirdiniz?***

- Bizə əvvəlcə təhlükəsizlik baxımından kəndlərdəki evlərə girməmək barədə tapşırıq verilmişdi. Həmin ərazilər təmizlənəndən sonra azad etdiyimiz kəndlərdəki evlərə daxil olduq. Doğma torpaqlarımıza ayaq basmaq, orada yetişən meyvələri dadmaq insanda böyük sevinc və qürur hissləri yaradırdı.

***- Heç düşünürdünüzmü ki, torpaqlarımızın azad olunması əməliyyatlarında sizin də rolunuz ola bilər?***

- Düzünü desəm, çağırış gələnə qədər heç təsəvvürümə belə gəlməzdi ki, mən nə vaxtsa bu döyüşlərdə iştirak edərəm. 44 günlük Vətən müharibəsinin iştirakçısı olmaqdan qürur duyuram. Sevinirəm ki, torpaqlarımızın azad olunmasında, az da olsa, mənim də payım var.

Qeyd edim ki, müharibə qurtarandan sonra Zəngilandan Almaniyaya zəng edib, atamla danışdım. Bildirim ki, atam Əli Əliyev birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Ağdam istiqamətində gedən döyüşlərdə yaralanıb. Atamla danışanda çox kövrəldi. O deyirdi ki, mən xoşbəxtəm ki, sən də bu zəfərin bir parçası oldun.

***- Vətən müharibəsində Sizin üçün ən təsirli anlar hansılar oldu?***

- Briqadamızda ailəli olan hərbçilər çox idi. Onlar müharibəyə gələndə övladlarının şəklini, ayaqqabısını, oyuncağını özləri ilə gətirmişdilər. Hər dəfə döyüşdən əvvəl övladlarının şəkillərinə baxıb, sanki vidalaşırdılar. Bu doğrudan da mənim üçün çox təsirli anlar idi. Amma sevinirəm ki, həmin hərbçi yoldaşlarım sağ-salamat yenidən öz ailələrinin, körpələrinin yanına qayıtdılar.



***- İdmançı olmağınız döyüşlərdə sizə hansı üstünlükləri qazandırdı?***

- Düzdür, idmançı olmağım mənə fiziki və psixoloji cəhətdən bir qədər üstünlüklər verdi.Yadıma gəlir ki, döyüş zamanı hərbçi yoldaşımın bronjileti itmişdi. Mən öz bronjiletimi ona verdim. Hətta Qubadlıda mühasirədə olanda belə bronjiletsiz idim. Komandirim mənə öz bronjiletini vermək istəyəndə qəbul etmədim. Doğrudan da məndə belə bir inam var idi ki, hər şey yaxşı olacaq. Düzdür, insanı qoruyan Allahdır, hər şey qismətdən asılıdır. Mühasirədə olduğumuz vaxtı özümə deyirdim ki, mən buradan sağ çıxacağam. Bu fikri psixoloji olaraq beynimə yeritmişdim. Bu da yəqin ki, idmandakı psixoloji hazırlığımdan irəli gəlirdi. Lakin ümumilikdə, təbii ki, Vətən müharibəsində Ordumuzun hər bir əsgəri əsl igid, vətəninin cəngavər oğlu olduğunu sübut etdi.

***- Gəncə, Bərdə və digər ərazilərimizin düşmən tərəfindən raket atəşinə tutulması anını necə xatırlayırsınız?***

- Düzünü desəm, Gəncə şəhərinə endirilən raket mərmisi üzərimizdən keçdi. Əvvəlcə həmin raketin bizə istiqamətləndiyini düşündük. Lakin təxminən 30 dəqiqə sonra düşmənin Gəncəni hədəf aldığı barədə məlumat əldə etdik. Təbii ki, düşmənin dinc sakinlərimizə qarşı törətdiyi terror hadisəsinin cavabı döyüşlərdə dərhal verildi.

Bu hadisələr bizdə düşmənə olan nifrət hissini birə-beş artırdı. Müharibə vaxtı işğal altında olan kəndlərdə məskunlaşan ermənilər mülki sakin olmasına baxmayaraq, əllərinə silah götürmüşdülər. Buna baxmayaraq, biz heç vaxt düşmənin mülki insanlarını hədəfə almırdıq. Çünki bu müharibə qaydalarına ziddir. Amma onlar hətta 15 yaşındakı uşaqları belə müharibəyə cəlb etmişdilər.

***- Aylardır həsrətlə yolunuzu gözləyən doğmalarınız gəlişinizi necə qarşıladı?***

-Tərxis olunma xəbərini dayıma və qardaşıma demişdim. Dostumdan isə məni qarşılamağını istəmişdim. O, isə mənə sürpriz edərək, bütün dostlarım və tələbələrimlə məni qarşılamağa gəldi. Ümumiyyətlə, müharibə başa çatdıqdan sonra telefonuma tələbələrimdən, onların valideynlərindən çoxsaylı ismarıclar gəldi. Onların mənə yazdıqları xeyir-dualar, xoş sözlər və mənimlə qürur duymalarını bildirməkləri bir məşqçi kimi mənə xoş oldu. Düşünürəm ki, Vətən müharibəsində iştirak etməyim, tələbələrimdə olan vətənpərvərlik hisslərini birə-beş artıracaq. Bundan sonra da çalışacağam ki, yetişdirəcəyim basketbolçular bu vətənə layiq övladlar olsunlar, vətənini, torpağını sevsinlər, bu torpaq uğrunda canını fəda edən şəhidlərimizi tanısınlar.

***- Müharibədən sonra mülki həyata öyrəşməkdə çətinlik çəkmirsiniz?***

- Düzünü desəm, hələ alışa bilmirəm. Hər şey mənə qəribə gəlir. 90 gün orada qaldıq. Yatanda başımızın üzərində buludları, ulduzları görürdük. Amma indi evdə yatanda və yuxudan oyananda qəribə hisslər keçirirəm. Ermənilər qapılara, bulaqlara, ağaclara, pilləkanlara və digər yerlərə partlayıcı qurğular yerləşdirmişdilər. Bir ani səhv həyatımız bahasına başa gələ bilərdi. Çox ehtiyatlı olmalı idik. Bu səbəbdən də evdə olanda həmin halları özümdən asılı olmadan keçirirəm. Otaqdan otağa keçəndə, qapını açanda, yeriyəndə həmin anlar gözümün önünə gəlir. Hər şeyi fikirləşib, ehtiyatla etməyə çalışıram.

***Türkay Niftəliyeva***

## *Cavanşir Qurbanov:*
# "Qazilər üçün yeni idman klubları yaradılsa, yaxşı olardı"




Döyüş meydanında düşmənə sarsılmaz zərbə vuran Azərbaycan əsgəri bu gün öz doğmalarının yanına qəhrəman kimi qayıdır. Onların Vətən müharibəsində göstərdiyi rəşadət hər birimizi qururlandırır. Azərbaycanlı zabit və əsgərlərimiz ərazi bütövlüyü uğrunda bu haqq savaşında düşmənin belini qıraraq, onu torpaqlarımızdan qovdu. Vətən müharibəsinin başlandığı vaxtdan etibarən öz səhifələrində bu mövzunu diqqətdə saxlayan "Olimpiya dünyası" qəzeti silsi-



lə yazıları davam etdirir. Qəzetdə dərc olunan müxtəlif sahələrdə fəaliyyət göstərən mütəxəssislərinin Vətən müharibəsi ilə bağlı fikirləri çoxsaylı oxucularımızın marağına səbəb olub və tanınmış idman mütəxəssisləri də öz fikirlərini bizimlə bölüşüblər. "Olimpiya dünyası" qəzetinin budəfəki qonağı Əməkdar bədən tərbiyəsi və idman xadimi, 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenli, beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi, Yasamal rayon Ağsaqqallar şurasının sədri Cavanşir Qurbanov oldu. Uzun illər Azərbaycan güləşinin inkişafında böyük xidmətləri olan qocaman mütəxəssis öz fikir və təkliflərini bizimlə bölüşdü. Söhbətə Vətən müharibəsindəki qələbə ilə başlayan Cavanşir Qurbanov bunları dedi:

"Yola saldığımız il Azərbaycan tarixində böyük və şərəfli tarix kimi yadda qalacaq. 44 günlük Vətən müharibəsində rəşadətli ordumuz böyük qəhrəmanlıq göstərdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 28 ildən sonra əzəli və qədim Qarabağımız öz azadlığına qovuşdu. Müharibə hər zaman amansız olub. Vətən uğrunda döyüşlərdə neçə-neçə Azərbaycan övladı canından və qanından keçərək, vətəni mənfur düşməndən azad etməyə müvəffəq oldu. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hər bir Azərbaycan övladının ruhu qarşısında baş əyirik. Onları böyüdüb, boya-başa çatdıran valideynlərin əllərindən öpürük. Bu müharibə bir daha sübut etdi ki, Azərbaycan xalqı məğrur və vətəni canından çox sevən xalqdır. Bütün dünya bunun şahidi oldu. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamından sonra minlərlə azərbaycanlı Ordu sıralarına yollandı. Onların hər biri döyüşlərdə böyük ruh yüksəkliyi ilə vuruşdular. Nəticə isə göz qabağındadır. Bu gün Azərbaycan Ordusu Qarabağı illərdən sonra düşmən əsarətindən azad edib".

Cavanşir müəllimlə söhbət zamanı təcrübəli mütəxəssis maraqlı bir fikirlə diqqətimizi çəkdi. O, bildirdi ki, müharibədə öz sağlamlığını itirən qazilərimizə bu gün daha çox diqqət yetirilir. Lakin bu diqqət maddi cəhətdə yanaşı, mənəvi olaraq daha da genişləndirilməlidir.

"Qeyd etdiyim kimi, müharibənin amansızlığı özünü göstərdi. Vətən müharibəsində zabit və əsgərlərimiz şəhidlik zirvəsinə yüksəldilər. Bununla yanaşı, xeyli qazilərimiz oldu. Onlar vətənin azadlığı üçün sağlamlığını qurban verdilər. Fiziki və mənəvi cəhətdən güclü olan Azərbaycan gənci bu gün bizim fəxrimizdir. Biz onları daim diqqətdə saxlamalıyıq. Qazilərimiz hiss etməlidir ki, xalqımız onlarla qürur duyur, onlardan qayğısını əsirgəmir. Bu gün müharibədən tərxis olan qazilərimizə hər an dəstək olmalıyıq. Onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün bir sıra işlər görməliyik. Qazilər üçün yeni idman klubları yaradılsa, yaxşı olardı. Həmin klubda onlar idmanla məşğul ola bilərlər. Orada həmçinin idmanla yanaşı, digər sahələrdə istedadı olan gənclərimizə də imkan yaradıla bilər. Bunun üçün ölkənin hər bir yerində infrastruktur formalaşıb. Olimpiya idman komplekslərində bu işin həyata keçməsi üçün mövcud şərait yaradılıb. Bundan başqa şəhid ailələrində böyüyən övladlar ödənişsiz idmanla məşğul olmaları da, məqsədəuyğundur. Axı onlar gələcəyin əsgərləridir. Bu müharibə bir daha sübut etdi ki, gənc nəsil fiziki və mənəvi cəhətdən sağlam və vətənpərvər ruhda yetişib. Bu və ya digər məsələlərə də həssaslıqla yanaşmaq lazımdır. Bu işdə əlaqədar qurumlar xüsusi fəallıq göstərməlidirlər. Mən öz növbəmdə Yasamal rayon Ağsaqqallar şurasının sədri kimi, bu işdə öz qüvvə və bacarığımı əsirgəməyəcəyəm. Hesab edirəm ki, bu nəcib təklif tezliklə bəyəniləcək və öz bəhrəsini verəcək", - deyə o bildirdi.

İşğaldan azad olunan topaqlarımızda quruculuq işlərindən də danışan Cavanşir müəllim bildirdi ki, həmin ərazilərdə idman yeni dövrünə qədəm qoyacaq. Ermənilər tərəfindən dağıdılan idman qurğuları yenidən bərpa edilərək, idmansevərlərin ixtiyarına veriləcək. O, dedi: "Torpaqlarımız uzun illərdən sonra azadlığına qovuşdu. Qarabağda yeni dövr başlayır. İşğaldan azad olunmuş torpaqlarımızda yeni quruculuq işləri başlayır. İllərdən bəri doğma vətən həsrətilə yaşayan həmin torpaqların əsl sakinləri yaxın müddətdə yurd-yuvasına qayıdacaq. Həmin ərazilərdə yenidən canlanma hökm sürəcək. Hər bir sahədə yeni işlər görüləcək. İdman da Qarabağa qayıdacaq. Həmin rayon və şəhərlərdə yeni idman qurğuları inşa olunacaq. Qarabağlı idmançıların sayı da artacaq. Bununla da bütün sahələr kimi, işğaldan azad edilən torpaqlarımızda da Azərbaycan idmanı da daha sürətlə inkişaf edəcək. Biz idman xadimləri və mütəxəssisləri də buna tam əminik".

***Anar Əhmədov***

## Karate1 Premyer Liqa turniri Türkiyədə keçiriləcək

Martın 12-14-də Bakıda keçirilməli olan, lakin Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qapalı zallarda idman yarışlarına qadağa qoyması səbəbindən ləğv edilən Karate1 Premyer Liqa turniri Türkiyənin İstanbul şəhərində keçiriləcək. Bu barədə Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov məlumat verib. "Mən Bakıda bu yarışı keçirə bilməyəcəyimizi bildikdən dərhal sonra Türkiyə Karate Federasiyasının prezidenti Esat Dəlihasanla əlaqə saxladım. Ona bu yarışı keçirməklə bağlı təklif verdim. Həmkarım da bu təkliflimlə razılaşdı. O, həm də Ümumdünya Karate Federasiyasında (WKF) İdarə Heyətinin üzvlərindən biridir. Bu barədə fikrimi WKF-in prezidenti Antonio Espinosa da bildirmişəm. Sadəcə, yarışın bizdən alınıb, İstanbula verilməsi üçün Gənclər və İdman Nazirliyinin rəsmi məktubu lazımdır", - deyə Yaşar Bəşirov bildirib.

## Şahmat

### *20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş şahmat turniri start götürür*

Bu gün "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş onlayn formatda respublika şahmat turnirinə start veriləcək. Yarış İsveçrə sistemi üzrə 11 turdan ibarət olacaq. Oyuna nəzarət vaxtı 3 dəqiqə, hər gedişə +1 saniyədir. Turnirdə Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq gənclər idman şahmat məktəblərinin və şahmat klublarının 17 yaşınadək (2004-cü il təvəllüdlü və daha kiçik yaşlı) zəka sahibləri iştirak edəcəklər. Respublika şahmat turnirində ümumi hesabda ilk 3 yeri tutmuş oğlan və qız şahmatçılar "Təhsil" RİM-in müvafiq dərəcəli diplomları ilə təltif olunacaqlar. Bundan əlavə 7, 9, 11, 13, 15, 17 yaşadək oğlanlar və qızlar arasında ilk 3 yeri tutmuş şahmatçılar da müvafiq dərəcəli diplomlarla mükafatlandırılacaqlar.

Yarışın keçirilməsində əsas məqsəd 20 Yanvar şəhidlərinin əziz xatirəsinin yad edilməsi, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili, sürətli şahmat üzrə qabiliyyətlərin müəyyənləşdirilməsi və müasir texnologiyalardan istifadə etməklə onların oyun təcrübələrinin artırılmasıdır.



## "Jabrail Cup" yarışının qalibləri müəyyənləşib

Şahmat üzrə "Karabakh is Azerbaijan" seriyasından ilk turnir keçirilib. "Chess.az" saytının təşkil etdiyi seriya yarışının ilk turniri olan "Jabrail Cup"da Azərbaycan və Türkiyə şahmatçıları mübarizə aparıblar. Ümumilikdə 67 şahmatçının iştirak etdiyi turnirin qalibi azərbaycanlı zəka sahibi Elnur Mehtiyev (10 xal) olub. İkinci və üçüncü yerlərdə isə müvafiq olaraq Orxan Bağırov (8 xal) və Kənan İsbatov (6 xal) qərarlaşıblar.




Qeyd edək ki, seriya ümumilikdə 8 turnir və böyük finaldan ibarət olacaq. Hər bir turnir işğaldan azad olunmuş şəhərlərimizin adını daşıyacaq. Səkkiz turnirin hər birində ilk altı yeri tutmuş şahmatçılar böyük finala düşmək üçün xallar toplayacaqlar.

## Qrossmeysterlərimiz "Grand Chess Tour"da yarışacaqlar

Şahmat üzrə "Grand Chess Tour" seriyasının təqvimi və iştirakçılarının siyahısı müəyyənləşib. FİDE-nin açıqladığı siyahıya görə, seriya çərçivəsində 5 turnir keçiriləcək. Belə ki, iyun ayında təşkil ediləcək (iyunun 3-15-də) birinci turnirə Buxarest, ikinci yarışa (iyunun 16-23-də) Paris ev sahibliyi edəcək. Üçüncü turnir iyulun 5-12-də Zaqrebdə keçiriləcək. Sonuncu iki yarış ABŞ-ın Missuri ştatının Sent-Luis şəhərində avqustun 9-16-da və 16-28-də təşkil olunacaq. FİDE beş turniri əhatə edəcək turda 10 qrosmeysterin çıxış edəcəyini açıqlayıb. Yarış iştirakçıları arasında Azərbaycan qrossmeysterləri Şəhriyar Məmmədyarov (2770) və Teymur Rəcəbov (2765) da var. ABŞ və Rusiya komandaları da yarışda iki idmançı ilə təmsil olunacaq. Fabiano Karuana (2823) və Uesli So (2770) şimali amerikalıları, Yan Nepomnyaşi (2789) və Aleksandr Qrişuk (2777) Rusiyanı təmsil edəcək. Yarışda Maksim Vaşye-Laqrav (Fransa, 2784), Dinq Liren (Çin, 2791), Aniş Qiri (Niderland, 2764) və son turnirlərdə Teymur Rəcəbovun "qapazaltı"sına çevrilən Levon Aronyan (Ermənistan, 2781) da mübarizə aparacaq. Şahmat turu həm klassik, həm də rapid və blitsi əhatə edəcək.

Turnirin mükafat fondu 1 milyon 275 min dollar təşkil edir.

* * *

Fevralın 6-14-də "Champions Chess Tour" seriyasının üçüncü turniri keçiriləcək. Onlayn turnirdə azərbaycanlı qrossmeyster Teymur Rəcəbov da iştirak edəcək. Onunla yanaşı, yarışda hazırkı dünya çempionu Maqnus Karlsen (Norveç), Nikaru Nakamura, Uesli So (ABŞ), Yan Nepomnyaşi, Danil Dubov (Rusiya), Maksim Vaşye-Laqrav (Fransa), Levon Aronyan (Ermənistan) da mübarizə aparacaqlar. "Champions Chess Tour" seriyası 10 turnirdən ibarət olub 2021-ci ilin sentyabrınadək davam edəcək.



Xatırladaq ki, "Champions Chess Tour" seriyasının ikinci - "Airthings Masters" turnirinin finalında şahmatçımız Teymur Rəcəbov Ermənistan təmsilçisi Levon Aronyanı məğlub edərək qalib adını qazanıb. Ondan əvvəlki, "Skillinq Open" yarışında da təmsilçimiz erməni rəqibinə prinsipial qarşılaşmada qalib gəlib. Həmin yarışın qalibi isə ABŞ şahmatçısı Uesli So olub.

İdman tarixindən

***Müasir dövrümüzdə qadın idmanı sürətlə inkişaf edir. Hazırda qadınların yüksək dərəcəli yarışlarda iştirak etməsi, hətta qeyri-ənənəvi idman növlərində belə yüksək nailiyyətlər qazanması heç kəsi təəccübləndirmir. Halbuki idman növlərinin əksəriyyəti bir zamanlar onlar üçün əlçatmaz hesab olunurdu. Dövrümüzün ən hərəkətli və sürətli idman növlərindən biri hesab olunan boksu buna misal çəkmək olar. Bəzi idmansevərlər tərəfindən birmənalı qarşılanmayan qadın boksu hazırda inkişaf zirvəsindədir. Mütəxəssislərin fikrincə, boks bəzi insanlarda özünə qarşı pərəstiş, nifrət, tərif, qınaq hissləri oyadır. Bir sözlə, o, insanlarda müxtəlif hisslər oyatsa da, heç kəsi özünə laqeyd qoymur. XXI əsrdə qadınlar rahat şəkildə kişilər üçün xarakterik olan boksla sərbəst məşğul olurlar. Zərif cinsin nümayəndələri artıq çempion adı uğrunda mübarizə aparır, Olimpiya Oyunlarında çıxış edir, hətta əks cinsin nümayəndələri ilə də birgə mübarizəyə qoşulurlar. Lakin zaman keçməsinə baxmayaraq, hər kəsi maraqlandıran bir sual aktuallığını qoruyub saxlayır: "Boks qadın idman növüdür?" Bu suala hər kəsin özünəməxsus cavabı var.***

***"Olimpiya dünyası" qəzeti bu sayında zəriflərin rinqə gedən yolundan bəhs edən yazını oxuculara təqdim edir.***

# Güclü zərifləri rinqə aparan yol



## Səhnələşmiş döyüş

Qadınlar kişilərə xas olan yumruq döyüşünə XVIII əsrdə başlayıblar. Qadın boksunun yaranma tarixi 1720-ci ilə təsadüf edir. Həmin dövrdə Londonda Klerkenurlladan olan Elizabet Uilkinson xüsusilə tanınırdı. Belə ki, qadın döyüşçü yumruqlarla yanaşı, təpik vurmaq, itələmək, bir sözlə, qələbə qazanmaq üçün hər bir üsuldan istifadə edirdi. O, həm qadınlar, həm də kişilər ilə döyüşürdü. Amma buna baxmayaraq, qadın boksu cəmiyyətdə birmənalı qarşılanmırdı. Həmin dövrün qəzet və jurnallarının məlumatlarına görə, yumruq ilə döyüşən qadınlar aşağı təbəqəyə aid olunurdular. Onlara cəmiyyətdə hörmət edilmirdi. Lakin "yumruq atan xanımlar" bununla qürur duyurdular. Maraqlıdır ki, zərif cinsin nümayəndələrinin rinqlə tanışlığı məşqçilikdən başlayır. Belə ki, Viqmur adlı qadın İngiltərə çempionatında həyat yoldaşının vaxta nəzarətçisi (sekundant), italiyalı Antonella Minervi isə peşəkarlar arasında keçirilən boks yarışlarında hakim qismində çıxış edib. Amerikalı Ellen Eton isə boks yarışlarının təşkilində, sponsorların cəlb olunmasında nüfuz qazanıb.

1876-cı ildə məşhur Nyu-York teatrının səhnəsində ilk dəfə qadın döyüşü keçirilib. Əslində, bu addım insanların teatra marağını artırmaq üçün atılmışdı. Rouz Harland və Nelli Saunders adlı iki rəqqasənin döyüşü insanlar arasında əsl çaşqınlıq yaratmışdı. Həmin döyüşdə hər iki xanım 100 dollar əldə etmişdi. Bu, o dövr üçün kifayət qədər yüksək məbləğ hesab olunurdu. Döyüşçü xanımlara qarşılaşmadan sonra gümüş boşqab hədiyyə edilmişdi. Cəmiyyətdə səsküy yaradan bu hadisə "The New York Times" qəzetinin də əsas xəbərinə çevrilmişdi. Xəbərlə tanış olan hakimiyyət nümayəndələri bu hadisəyə kəskin reaksiya vermişdilər.



Zərif simalara nüfuz edən amansız zərbələrin fəsadları qəzetdə əksini tapmışdı. Reaksiyalar daha da sərtləşdi və qadınlar boksdan uzun müddət kənarda qaldılar.

Lakin döyüşçü xanımların yumruq davası bununla bitmədi. Çıxış yolu yalnız qeyri-qanuni döyüşlərin təşkilində idi. Qadınlar gizli də olsa, yenidən rinqə qayıtdılar. Cəmiyyət yenə də onlara qarşı mövqeyini dəyişmədi - vəhşi və yüngül təbiətli qadınlar. Qadınların döyüşlərindən zövq alanların sayı tezliklə artmağa başladı. Azarkeşlər arasında hər təbəqədən olan insanlara rast gəlmək olurdu. XIX əsrin əvvəllərində səhiyyə nümayəndələri qadınlara yarışda iştirak etməyə qadağa qoydu. Buna səbəb kimi qadın bədəninin həssaslığı və yüksək fiziki təzyiqə tab gətirməməsi göstərilirdi.

Amma "qadın boksu" amili bütün təzyiqlərə baxmayaraq özünü tapa bilmişdi. Beləliklə, cəmiyyət qadınları rinqdə də qəbul etməyə başladı.

Dünyanın ən böyük idman tədbiri olan Olimpiya Oyunlarının proqramı tədricən genişlənirdi. Olimpiadada iştirak edən idman növlərinin sayı da artmaqda davam edirdi. Boks da proqrama salınan idman növləri sırasında öz növbəsini gözləyirdi. Nəhayət, 1904-cü ildə boks Sent-Lüisdə keçirilən Olimpiya Oyunlarının proqramına daxil edildi.

Təşkilat Komitəsi kişi boksunu proqrama qəbul etsə də, qadın boksuna bu imkanı yaratmadı. Okeanın o tayında keçirilən Oyunlarda iştirak etmək üçün komitəyə müxtəlif ölkələrdən olan 11 xanım idmançı müraciət məktubu ünvanlamışdı. Lakin onların məktubu müsbət qarşılanmadı. Nəticədə xanımlar planetin ən mötəbər yarışında sadəcə tamaşaçı qismində iştirak etməli oldular.

## İkinci oyanış

XIX əsrin ortalarında Amerikada qadın boksunun "ikinci oyanışı" baş verdi. Qeyri-qanuni döyüşlər ikinci Dünya müharibəsi dövründə də davam edirdi. Qadağalara məhəl qoymayan cəsur xanımlar gizli döyüşlərdə iştirak edərək, pul qazanırdılar. Amma belə döyüşlər qanunsuz keçirildiyi üçün cinayət tərkibli hesab olunurdu. Döyüş məkanları aşkar edildikdə isə həm iştirakçılar, həm də təşkilatçılar güc strukturları tərəfindən cəzalandırılırdı.

1954-cü ildə Amerikanın milli televiziyası ilk boksçu qadın barədə reportaj yayımladı. Bu cəsur qadın Böyük Britaniya vətəndaşı olan Barbara Battrik idi. Xanım Battrik kübar və zəngin Britaniya ailəsində dünyaya gəlmişdi. O, kiçik yaşlarında qonşuluqda yaşayan oğlanlar ilə birgə boksun sirlərinə yiyələnirdi. Zamanla Battrik bu növə böyük sevgisinin və bacarığının olduğunu hiss edirdi. Qadın boksu 1940-cı illərdə Britaniya ərazisində fəaliyyətdə olsa da, bu, rəsmi xarakter daşımırdı. Barbara Battrik böyüdükdən sonra Avropaya səyahət edir və hər kəsə öz bacarığını nümayiş etdirirdi. O, yalnız qadınlarla deyil, həmçinin kişi boksçularla da sparrinq məşqləri keçirirdi.







1954-cü ildə Amerika telekanalları Kanada ərazisində keçirilən Barbara Battrik və Co An Heq adlı amerikalı qadının döyüşünü nümayiş etdirdilər. Amerikada qadın boksuna olan qadağa hələ də qüvvədə olduğu üçün görüşlər yalnız şou xarakteri daşıyırdı. Dörd raundun nəticəsinə görə, C.Heq Barbara Battrik ilə qarşılaşmada qələbə qazandı. Bu, B.Battrikin karyerası ərzində ilk məğlubiyyəti idi. Lakin bu məğlubiyyət xanım döyüşçünü həvəsdən salmadı. O, qadın boksu tarixində təkcə idmançı kimi deyil, həmçinin Beynəlxalq Qadın Boks Federasiyasının (WIBF) da təsisçisi kimi yadda qalıb.

## Boks tarixində ilk qadın hakim

1975-ci ildə Yeva Şeyn boks yarışlarına ilk dəfə hakimlik lisenziyası alıb. O, peşəkar boks tarixinə ilk qadın hakim kimi adını yazdırıb. Y.Şeyn həmçinin kişilər arasında təşkil olunan peşəkar döyüşləri də idarə edirdi. Xanım hakim karyerası ərzində 50 döyüş idarə edib. Hətta onlardan birinin çempionluq turniri olduğu da deyilir. Lakin qadağalar səbəbi ilə qadın boksunun inkişafına dair atılan ehtiyatlı və kiçik addımlar bəhrəsini vermirdi. ABŞ-ın bir çox ştatlarında bu idman növünə hələ də qadağalar tətbiq olunmuşdu. Qadınların həvəskar rinqdə döyüşməsinə baxmayaraq, onların Olimpiya Oyunlarında və digər beynəlxalq turnirlərdə iştiraklarına icazə verilmirdi.

## Güclü ataların zərif davamçıları

Qadın boksunun inkişafında əsas təkan XX əsrin 80-ci illərinin sonunda baş verdi. 1988-ci ildə İsveç rəsmi olaraq Olimpiya Oyunlarında qadın döyüşlərinin keçirilməsinə qoyulan qadağanı ləğv etdi. Bu, rəsmi olaraq böyük boks üçün atılan ilk kiçik addım idi. Zərif cinsin nümayəndələri arasında boks növünə maraq o qədər böyük idi ki, qadınlar bunun üçün hətta məhkəmələrə müraciət edir, azad şəkildə sevdikləri idman növü ilə məşğul olmağı əlaqədar qurumlardan tələb edirdilər. Nəhayət ki, uzun sürən mübarizədən sonra onlar bu istəklərinə nail oldular. 90-cı illərdə İsveçdən sonra bir neçə ölkə qadın boksuna qoyulan qadağanı aradan qaldırdı.

Peşəkar qadın boksuna diqqət üç məşhur boksçunun - Məhəmməd Əlinin qızı Leyla Əli, Co Freyzerin qızı Ceki Freyzer Layd və Corc Formenin qızı Frida Formen daxil olduqdan sonra daha da artdı. Onlar qadın boksunda iki layiqli rəqibin döyüşdüyünü hər kəsə sübut etdilər. Bu döyüşlər qadın boksunun yeni səviyyəyə çatması demək idi. 1995-ci ildə qadınlara ilk dəfə olaraq, "Qızıl əlcək" turnirində iştirak etmək icazəsi verildi.

Peşəkar qadın boksunun başlanğıc nöqtəsi 1996-cı il hesab olunur. Kristina Martin hakimlərin yekdil qərarı ilə Deydre Qoqartini məğlub etdi və məhz bu döyüş ilk rəsmi qadın peşəkar döyüşü kimi tarixə düşdü. XXI əsrdə qadınlar Avropa və dünya çempionatlarında, müxtəlif turnirlərdə iştirak edirlər.

Olimpiya Oyunlarında isə qadınlar rəsmi olaraq 2012-ci ildən (London-2012) mübarizə aparırlar.

Bununla da, qadınlar öz zəfərlərini qeyd etdilər. Bu, zərif cinsin nümayəndələrinin uzun illər məhkəmə zallarında və hakimiyyətlə apardığı mübarizənin nəticəsi idi.

Müasir qadın boksu günü-gündən məşhurlaşır və inkişaf edir. Təbii ki, bu, qadınların öz hüquqları uğrunda amansız mübarizəsi nəticəsində mümkün olub. Bu gün də ictimaiyyət arasında qadın boksuna idman növü kimi fərqli yanaşma var. Gözəl xanımların simasında zərbə izlərini müşahidə etmək bəziləri üçün xoş deyil. Lakin bu fikirlərin qadınları bu istəkdən daşındırmağa gücü çatmır. Xanımlar mənəvi cəhətlə yanaşı, fiziki cəhətdən də kişilərdən geri qalmadıqlarını sübut etdilər.

***Hazırladı:***
***Türkay Niftəliyeva***

# FUTBOL




# Avropadan transfer xəbərləri





## İspaniya

Fransanın "Lion" klubunun hücumçusu Mussa Dembelenin karyerasını İspaniyada davam etdirəcəyi dəqiqləşib. 25 yaşlı forvard "Atletiko"ya keçib. İspaniya təmsilçisi mövsümün sonuna qədər icarəyə götürdüyü Dembeleni yayda 33,5 milyon avroya birdəfəlik transfer etmək hüququna malik olacaq. Qeyd edək ki, Mussa Dembele "Lion"a 2018-ci ildə "Seltik"dən keçib.

* * *

"Osasuna" "Atletiko"nun futbolçusu Manu Sançesi heyətinə qatıb. 20 yaşlı müdafiəçi Madrid təmsilçisində icarə əsasında çıxış edəcək. Onunla mövsümün sonunadək müqavilə imzalanıb. Qeyd edək ki, "Atletiko"nun yetirməsi olan Sançesin klubu ilə müqaviləsi 2025-ci ilin yayınada bitir.

* * *

Madrid "Real"ının hücumçusu Luka Yoviç komandanı tərk edib. Madrid təmsilçisi sebiyalı futbolçunu sabiq klubu "Ayntraxta"a icarəyə göndərib. Qeyd edək ki, 2019-cu ildən Frankfurt klubundan 60 milyon avroya "Real"a keçən Yoviç bu müddətdə cəmi 11 oyunda start heyətdə meydana çıxıb.

* * *

İngiltərənin "Mançester Yunayted" klubunun yarımmüdafiəçisi Xuan Mata öz vətəninə qayıtmağa hazırlaşır. 33 yaşlı orta sahə oyunçusu yenidən "Valensiya"nın formasını geyinməyə yaxındır. "Qırmızı şeytanlar"la müqavilə müddəti mövsümün sonuna qədər olan Mata yeni razılaşma barədə düşünmür. "Yarasalar" da maliyyə problemi səbəbindən onu yayda azad agent kimi heyətə cəlb etməyi planlaşdırır. Qeyd edək ki, Xuan Mata 2007-2011-ci illərdə "Valensiya"nın formasını geyinib.

## İtaliya

İtaliyanın "Napoli" klubunun futbolçusu Adam Unas karyerasını A seriyasının digər klubunda davam etdirə bilər. "Parma" hücumçunun xidmətində maraqlıdır.

Əlcəzairli futbolçu hazırda "Kalyari"də icarə əsasında çıxış edir. Bu keçidin qış transfer pəncərəsində gerçəkləşəcəyi gözlənilir.

Qeyd edək ki, ötən ay koronavirusa yoluxan futbolçu iki həftəlik karantinə alınmışdı.

* * *

"Yuventus"un sabiq futbolçusu Mario Mandzukiç karyerasını "Milan"da davam etdirməyə yaxındır. Klub artıq 34 yaşlı hücumçu ilə razılaşıb. Xorvatiyalı oyunçu İtaliya təmsilçisinə azad agent kimi keçəcək. Onunla mövsümün sonuna kimi müqavilə imzalanacağı gözlənilir. Qeyd edək ki, Mandzukiçin son klubu "Əl-Duhail" olub. O, Qətər təmsilçisindən ötən il ayrılıb.

* * *

"Yuventus" "Nant"ın hücumçusu Abdoualey Dabonu icarəyə götürüb. 19 yaşlı oyunçu bu mövsümün sonuna kimi Turin təmsilçisində icarə əsasında çıxış edəcək. Klub yayda onu birdəfəlik almaq hüququna malikdir. Qeyd edək ki, Dabo bu mövsüm "Nant"ın B komandasında 5 oyunda meydana çıxıb.

* * *

"Milan" "Torino"nun futbolçusu Sualiho Meyteni heyətinə cəlb edəcək. 26 yaşlı yarımmüdafiəçi ilə mövsümün sonuna qədər icarə müqaviləsi bağlanacağı bildirilib. Fransalı futbolçunun bu gün tibbi müayinədən keçəcəyi qeyd olunub. Meyte bu mövsüm "Torino"nun heyətində 16 oyunda iştirak edib, 1 qol və 1 məhsuldar ötürmə ilə yadda qalıb.

## Almaniya

Leverkuzen "Bayer"i "Mançester Yunayted"in müdafiəçisi Timoti Fosu-Mensahı transfer edib. Bu barədə klubun saytında məlumat yayılıb. "Transfermarket" bu transferin 1,7 milyon avroya başa gəldiyini yazıb. 23 yaşlı oyunçu ilə 3.5 illik müqavilə imzalandığı bildirilib. Qeyd edək ki, Fosu-Mensah bu mövsüm Premyer Liqada 1 matçda meydana çıxıb.

* * *

Berlin "Union"u "Bavariya"nın futbolçusu Leon Dayakunu icarəyə götürüb. Bu barədə "Union"un saytı məlumat yayıb. Klubun 19 yaşlı hücumçunu birdəfəlik almaq hüququnun olduğu bildirilib. Qeyd edək ki, Dayaku bu mövsüm 1 matçda meydana çıxıb.

## İngiltərə

London "Arsenal"ı Rob Holdinqlə müqaviləni uzadıb. 26 yaşlı müdafiəçinin yeni razılaşması 2024-cü ilin yayınadək qüvvədə olacaq. Qeyd edək ki, 2016-cı ildən London klubunda çıxış edən ingiltərəli futbolçu 96 rəsmi matçda meydana çıxıb və 2 qol vurub.

* * *

"Arsenal"ın futbolçusu Sokratis Papastatopulos bu qış komandanı tərk edə bilər. "Topçular" 32 yaşlı müdafiəçini komandada saxlamağı düşünmür və onu "Liverpul"a təklif edib. "Liverpul" isə VirCil van Deyk və Co Qomesin mövsümün sonunadək oynamayacağı üçün müdafiə xəttində ciddi problemlər yaşayır. Buna görə də "mersisaydlılar" yunanıstanlı oyunçunun keçidinə müsbət yanaşır. Qeyd edək ki, Papastatopulos 2018-ci ildən "Arsenal"da çıxış edir.

* * *

Madrid "Real"ında çıxış edən Eder Militao karyerasını İngiltərədə davam etdirə bilər. "Tottenhem" braziliyalı müdafiəçini heyətində görməkdə maraqlıdır. London klubunun baş məşqçisi Joze Mourinyo Militaonu komandasında görmək istəyir. "Real" isə futbolçunu yalnız sərfəli şərtlərlə buraxmağa razıdır. Madridlilərin təxminən 30 milyon tələb etdiyi iddia olunur. Qeyd edək ki, 22 yaşlı cənubi amerikalı 2019-cu ildən "Real"da oynayır.

* * *

İngiltərənin "Mançester Siti" klubu ön xəttini gücləndirməyə çalışır. "Şəhərlilər" hücuma artıq iki namizədini müəyyənləşdirib. Rəhbərlik Dortmund "Borussiya"sının gənc forvardı Erlinq Haland və "İnter"in qolçusu Romelu Lukaku arasında seçim etmək istəyir. Premyer Liqa təmsilçisi yay transferləri üçün ümumilikdə 200 milyon avro büdcə ayıracaq. Bu məbləğin böyük hissəsinin adıçəkilən hücumçulardan birinin keçidinə xərclənməsi nəzərdə tutulur. Qeyd edək ki, bu mövsüm Haland Bundesliqada, Lukaku isə A seriyasında 12 qol vurub.

* * *

İngiltərənin "Tottenhem" klubu futbolçusu Qaret Beyli komandada saxlamaq istəmir. London təmsilçisi Madrid "Real"ından icarəyə götürülən 32 yaşlı hücumçunu geri qaytarmaq niyyətindədir. Rəhbərlik yayda icarə müddəti bitəcək uelsli oyunçu ilə vidalaşacaq. Qeyd edək ki, Qaret Beyl 2020/2021 mövsümündə "Tottenhem" forması ilə 12 matça çıxıb və 3 qol vurub. Onun "Real"la müqaviləsi 2022-ci ilin yayında başa çatmalıdır. Beyl 2013-cü ildə Madrid klubuna məhz "Tottenhem"dən keçib.

## Türkiyə

- "Başakşəhər" futbolçusu Martin Skrtellə yollarını ayırıb. İstanbul təmsilçisi ilə 36 yaşlı müdafiəçinin müqaviləsinə qaşılıqlı razılaşma əsasında xitam verilib. Slovakiyalı oyunçu sol ayağından əməliyyat olunmuş və 6 ay yaşıl meydanlardan kənarda qalacağı açıqlanmışdı. Bu səbəbdən müqaviləsi mövsümün sonunda başa çatacaq futbolçu ilə razılaşma vaxtından əvvəl ləğv edilib. Qeyd edək ki, Skrtel 2019-cu ildən "Başakşəhər"də çıxış edirdi.

* * *

"Başakşəhər" "Milan"dan Leonardo Duarteni heyətinə cəlb edib. Bu barədə hər iki klubun mətbuat xidməti məlumat yayıb. İstanbul təmsilçisi braziliyalı müdafiəçini satın almaq şərti ilə 1,5 illik icarəyə götürüb. Qeyd edək ki, 2019-cu ilin yayından "Milan"da çıxış edən Duarte bu mövsüm 3 oyuna çıxıb.

## Fransa

"İnter"in yarımmüdafiəçisi Kristian Eriksen "Pari Sen-Jermen"ə (PSJ) keçə bilər. Futbolçu ilə parislilərin yeni baş məşqçisi Maurisio Poçettino maraqlanır.

O, danimarkalının transferini yaxın zamanda reallaşdırmaq istəyir. Eriksen "İnter"də 2020-ci ilin yanvar ayından çıxış edir. O, İtaliya klubuna "Tottenhem"dən 27 milyon avroya keçib.





# Dünya idmanı



## olimpnews.az - sizin saytınız




## “Atletik” “Barselona”nı məğlub edərək Super Kuboka sahib çıxdı




İspaniya Super Kubokunun sahibi müəyyənləşib. “Atletik” klubu tarixində 3-cü dəfə İspaniya Super Kubokunu əldə edib. Bilbao komandası finalda “Barselona”nı 3:2 hesabı ilə məğlub edərək, bu titula sahib çıxıb. Sevilyadakı “Estadio de-la Kartuxa”da keçirilmiş matçda Kataloniya komandası 2 dəfə - 40-cı və 77-ci dəqiqələrdə Antuan Qrizmannın qolları ilə önə keçib. Lakin 42-ci dəqiqədə Oskar De Markos, 90-cı dəqiqədə isə Asyer Vilyalibre fərqlənib.

Əlavə vaxtda basklar daha bir qol vurub. 94-cü dəqiqədə İnyaki Uilyams qələbə topuna imza atıb. 120+1-ci dəqiqədə isə “Barselona”nın kapitanı Lionel Messi qırmızı vərəqə alıb.

Beləliklə, “Atletik” 1984 və 2015-ci ildən sonra yenidən İspaniya Super Kubokunu qazanıb.

Qeyd edək ki, “Atletik” klubu yarımfinalda digər İspaniya nəhəngi “Real Madrid”i mübarizədən kənarlaşdırmışdı.

## İkiqat Olimpiya çempionu ABŞ konqresinə hücum edib

Üzgüçülük üzrə ikiqat olimpiya çempionu Klit Keller ABŞ konqresinin yerləşdiyi Kapitoliyə hücum edənlər sırasında olduğu aşkarlanıb. İdmançıya üç maddə üzrə ittiham irəli sürülüb. Məlumata görə, hüquq-mühafizə orqanlarına maneə törətməkdə, qanunla məhdudlaşdırılmış hər hansı bir binaya qəsdən daxil olmaqda, həmçinin Kapitoliya ərazisində ictimai asayişi pozmaqda ittiham olunur. İttiham təsdiq olunduğu halda üzgüçünü 15 il həbs cəzası gözləyir.



Qeyd edək ki, Olimpiya çempionunun həmin ərazidə nə etdiyi barədə dəqiq məlumat yoxdur. Onun yalnız polislər tərəfindən digər insanlar ilə birgə binadan çıxarmağa çalışdıqları bildirilir.

## UEFA Avro-2020 biletlərinin satışında dəyişiklik etdi

Avro-2020-nin Rusiya Federasiyasının Təşkilat Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, Avropa Futbol Assosiasiyaları İttifaqı (UEFA) biletlərin satış şərtlərinə və onların geri qaytarılması qaydasına dəyişikliklər edib. Belə ki, stadionda




yerlər ixtisar edildikdə və ya tribunalar tam bağlandıqda UEFA biletin məbləğini azarkeşlərə qaytaracaq. Azarkeş xəstəliklə üzləşdiyi halda isə (o cümlədən COVİD-19) o, bileti ailə üzvlərinə və ya dostlarına təqdim edə bilər.

Həmçinin xəbər verilir ki, Rusiya Federasiyası vətəndaşları və ölkə sakinləri də daxil olmaqla, Sankt-Peterburqda keçirilən oyunları izləmək üçün azarkeş pasportu əldə edilməlidir. Bundan əlavə oktyabrın 1-dək verilən pasportların etibarsız olduğu bildirilir.

Qeyd olunur ki, bilet sahibləri stadionda qəbul edilmiş sanitar qaydalarına, eləcə də təşkilatçı ölkə tərəfindən müəyyən edilmiş bütün normalara riayət etməlidirlər.

Xatırladaq ki, bir müddət əvvəl Sankt-Peterburqun AVRO-2020 və WADA sanksiyalarına baxmayaraq, Çempionlar Liqasının finalını qəbul edəcəyi bildirildi.

## Formula 1 komandası adını dəyişdi

Formula 1 üzrə dünya çempionatında çıxış edən “Reno” komandası adını və emblemini rəsmən dəyişdirib. Komandanın yeni adı “Alpine”dir. Fransa təmsilçisi tvitter hesabında adını, həmçinin rənglərini sarıdan qara, mavi, ağ və qırmızıya dəyişib.

Qeyd edək ki, Reno 2020 mövsümünü beşinci sırada başa vurub. Formula 1-də yeni mövsüm martın 28-də Bəhreyn Qran-prisi ilə başlamalıdır.



### Üfüqi

**1.** Ölkəmizdə fəaliyyət göstərən antidopinq agentliyi. **2.** Ukrayna çempionatının debütantı. **5.** COVİD-19 pandemiyasına qarşı mübarizə üsulu. **8.** Xəstəliyə yoluxan insanların müvəqqəti təcridolunma prosesi. **9.** “Kayserispor”un rumıniyalı yeni baş məşqçisi. **10.** Amerika Hokkey Liqasında çıxış edən komanda, ştat. **11.** İlin ən böyük idman tədbiri. **12.** “Bavariya”nın və ötən ilin ən yaxşı futbolçusu. **14.** Pekin Yay Olimpiya oyunlarının sponsor tərəfdaşlarından biri.

### Şaquli

**3.** Formula 1 yarışlarında Rusiyanı təmsil edən yeni pilot. **4.** Azərbaycan...Federasiyası. **6.** Qəhrəmanlığı ilə “dastana dönən” şəhid kikboksçu. **7.** Olimpiya məşəlinin keçdiyi Yaponiya şəhərlərindən biri. **13.** Son on ilin ən yaxşı baş məşqçilərindən biri olan argentinalı mütəxəssis. **15.** İdmanda səhf, qayda pozuntusu.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19